

**Telman Bahadur oğlu Cəfərov 1948-ci il dekabr ayının 4-də Qubadlı rayonunun Qaralar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Bakı Mədəni-Maarif Texnikumunda xalq çalğı alətləri orkestrinin rəhbəri ixtisası üzrə davam etdirib.**

# Saf diləklər müjdəsilə

**Doğma Qubadlıya dönərək 7 illik uşaq musiqi məktəbində müəllim işləyib. Təşkilatçılıq bacarığı nəzərə alınaraq 1970-ci ildə həmin məktəbin direktoru təyin edilib.**

1973-1975-ci illərdə hərbi xidmətdə olub. Hərbi qulluqdan qayıtdıqdan sonra həmin musiqi məktəbində müəllim kimi çalışıb. Rayon camaatında musiqiyə həvəs oyatmaqdan xüsusi zövq alan Telman müəllim evlərdən tar, kamança səsi eşidəndə zəhmətinin hədər getmədiyinə sevinir...

Mədəniyyətimizin inkişafı sahəsində bacarığını əsirgəməyən Telman müəllim Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində qiyabi təhsil alıb. 1984-cü ildə universiteti mədəni-maarif işinin təşkilatçı metodisti ixtisası üzrə bitirib. 1994-cü ildən Qubadlı Rayon Mədəniyyət Şöbəsinə rəhbərlik edib. 2006-cı ildən isə Qubadlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

*- Telman müəllim, mədəniyyət sahəsində 40 ildən artıqdır ki, çalışırsınız. Bu sahəyə gəlişinizi necə xatırlayırsınız?*

- Bilirsinizmi, musiqiyə həvəsim həddindən ziyadə çox olub. Amma həm də tarixçi olmaq arzusunda idim. Buna baxmayaraq müsabiqədən keçmədim. Sonra mədəni-maarif şöbəsinə qəbulla bağlı elan oxudum və sənədlərimi ora təqdim etdim. Tar ixtisası üzrə təhsil aldım.

*- Həvəskar kimi tanınmaqda sizə kömək edən olub?*

- Xanlıq kənd orta məktəbində təhsil alarkən xüsusi dərnəkdə məşğul olurdum. Qubadlı rayon məktəbliləri arasında keçirilən festivallarda həvəskar ifaçı kimi çıxış edirdim. İlk dəfə 15-16 yaşında olarkən oxuduğum "Qaçaq Nəbi" mahnısı mənə uğur gətirdi.

*- Sizdə musiqiyə olan sonsuz həvəsi kim oyadıb?*

- Valideynlərimin yaxşı səsi olub. Atamın oxuduğu mahnılar, babam Rəhimin məharətlə tar çalması məni sanki sehrli bir aləmə aparırdı. Musiqi sənətinin hər bir incəliyini onlardan öyrənməyə çalışırdım.

*- Tələbə yoldaşlarınızdan hazırda kimlərin adını çəkə bilərsiniz, kimlər daha çox məşhurdur?*

- Xalq artisti Zaur Rzayev, tarzən Vamiq Məmmədəliyev və b. musiqisevərlər tərəfindən çox sevilirlər...

*- Qubadlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin uğurları barədə nə deyə bilərsiniz?*

- Nailiyyətlərimiz çoxdur. Yalnız son illəri nəzərə alsaq, 2009-cu ildə Yevlax şəhərində keçirilən zərb alətləri və simli alətlər festivalında Mərkəz İsmayılovun rəhbərlik etdiyi qrup fərqlənərək nazirlik tərəfindən diplom və pul mükafatı alıb.

Mahmudlu kənd musiqi məktəbinin şagirdləri yüksək nəticəyə görə dəyərləndirilib. Qubadlı rayon musiqi məktəbinin şagirdləri də seçiliblər. Asiya Məmmədova istedadı ilə çoxlarını üstələyib.

Fatma Orucova və Leyla Cəbrayılova da "Həvəskar rəssamların və xalq tətbiqi sənəti ustalarının işlərində islami dəyərlər" mövzusunda keçirilən respublika müsabiqəsinin qalibi olublar.

2010-cu ilin may ayında Astarada keçirilən Uşaq muğam ifaçılarının V Respublika müsabiqəsində Elvin Qasımov diplomla təltif edilib. Türkan Səfərova "Saz-söz dünyası" müsabiqəsində birinci yerə çıxıb...

Söhbətimizin sonunda Qubadlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Telman Cəfərov fəaliyyətlərinə göstərdikləri diqqət və qayğıya görə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə və Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsakova dərin minnətdarlığını bildirdi.

Uzun illər rayonun ictimai-siyasi həyatında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Qubadlı Rayon İcra Hakimiyyətinin Fəxri fərmanı, mədəniyyətimizin inkişafı, istedadların aşkara çıxarılması, milli-mədəni irsimizin qorunması, təbliği sahəsindəki uzunillik səmərəli fəaliyyətinə görə "Şərəf" Diplomuna layiq görülən Telman müəllim sözün həqiqi mənasında cəfakeşdir.

Peşəsinə qəlbən bağlı olan bacarıqlı və təşkilatçı rəhbər "Avropa Nəşr Mətbu evi"nin qızıl medalı ilə təltif edilib.

Telman Cəfərovun ibrətamiz ömür yolunu gərgin əməyi nurlandırıb və onu el arasında hörmət və nüfuz sahibi edib.

Həkəri və Bərgüşad çaylarının su qovuşağında yerləşən Qubadlı rayonunun Qaralar kəndində dünyaya göz açan Telman müəllim hazırda 3 övladın atası, 3 nəvənin sevimli babasıdır.

**Həyatda ən böyük arzusu torpaq nisgilinə son qoyulması, el-obasında tonqal yandıraraq ətrafında dövrə vurub, yurddaşlarına musiqi sədaları altında mənəvi qida, sonsuz sevinc bəxş etməkdir. Xoş arzularla yaşayan bu nurani insana istəklərinə çatmasını diləyirik. Saf diləklər müjdəsilə yolunuz açıq olsun deyirik!**

**R. İMANOVA**